# THE LEGEND OF SHUSHA IN THE WORKS OF ASIF AZERELLI

**Emil Agayev**
Azerbaijan State academy of Fine Arts
Emilaghayev93@mail.ru

**Abstract.** Fine art is closely connected with the historical development of each country. If we talk about modern Azerbaijani painting, we must emphasize the name of the Karabakh theme. In the works of honored artist Asif Azerelli, this theme is a red line. The historical monuments and landscapes of this region are masterfully described. The image of Shusha, which is considered the crown of Karabakh, enlivens our legendary land in front of the audience in the artist's paintings. The history, life and culture of Shusha are told through colors. Our country, which is rich in history, has been revived in these works. There is also a patriotic spirit in the artist's compositions. In the works, the legend of Shusha takes us to those places alive. This article analyzes the compositions dedicated to Shusha in the works of Asif Azerelli.

**Keywords:** Asif Azerelli, Azerbaijan, Karabakh, Shusha, color, composition, fine arts

# ASİF AZƏRELLİ YARADICILIĞINDA ŞUŞA ƏFSANƏSİ

**Emil Ağayev Raul oğlu**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
Emilaghayev93@mail.ru

**Xülasə.** Təsviri incəsənət hər bir ölkənin tarixi inkişafı ilə sıx bağlıdır. Müasir Azərbaycan rəngkarlığından söhbət ediriksə, Qarabağ mövzusunun adını xüsusilə vurğulamalıyıq. Əməkdar rəssam Asif Azərellinin yaradıcılığında bu mövzu qırmızı xətt kimi keçir. Bu diyarın tarixi abidələri və mənzərələri ustalıqla təsvir edilmişdir. Qarabağın tacı sayılan Şuşanın təsviri rəssamın tablolarında əfsanəvi diyarımızı tamaşaçıların gözü qarşısında canlandırır. Şuşanın tarixiliyi, məişəti, mədəniyyəti rənglər vasitəsilə danışılır. Bu əsərlərdə tarixi ilə zəngin olan diyarımız canlandırılmışdır. Həmçinin rəssamın kompozisiyalarında

vətənpərvərlik ruhu duyulur. Əsərlərdə Şuşa əfsanəsi bizi həmin yerlərə canlı olaraq aparır. Bu məqalədə Asif Azərelli yaradıcılığında Şuşaya həsr edilən kompozisiyalar təhlil edilmişdir.

**Açar sözlər:** Asif Azərelli, Azərbaycan, Qarabağ, Şuşa, rəng, kompozisiya, təsviri incəsənət

**Giriş.** Müasir Azərbaycan rəngkarlığı ölkəmiz müstəqillik qazandıqdan sonra yeni mərhələyə qədəm qoydu. Yeni mövzular ən əsası isə Qarabağa həsr edilən tablolar, rəssamlarımızın xalqımızın tarixi-mədəni dəyərlərini öz tablolarına köçürtdülər. Belə sənətkarlarımızdan biri də, yaradıcılığında Qarabağ mövzusuna əsas yer ayıran əməkdar rəssam Asif Azərellidir.

**Asif Azərelli yaradıcılığında Şuşa əfsanəsi.** Əməkdar rəssam Asif Azərelli vətənpərvər ruhlu əsərlərin müəllifidir. Onun yaradıcılığında Qarabağın tacı sayılan Şuşanın bənzərsiz təsvirini özünəməxsus şəkildə görə bilərik. XIX əsrin sonu və XX əsrin əvvəllərində daha da inkişaf edən Şuşa Qafqazın musiqi, mədəniyyət mərkəzinə çevrilmişdi. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin, muğamının beşiyi" və "Zaqafqaziyanın musiqi konservatoriyası" adlandırırdılar.

“Cıdır düzü” (2000) (İll 1) əsərində rəssam Şuşa şəhəri yaxınlığında yerləşən, tarixən cıdır yarışlarının maraqla keçirildiyi və Qarabağ xanlığının türk əhaləsinin öz ənənəvi milli bayramlarını keçirdiyi tarixi ərazimiz təsvirini görə bilərik. İsti rənglərin kompozisiyada yaratdığı təəssürat tamaşaçının diqqətini daha da cəlb edir. Dağın zirvəsində isə iki sevgili əyləşərək, Allah tərəfindən yaradılan mənzərəyə sadəcə heyranlıqla baxırlar.



*İll 1. “Cıdır düzü” ( kətan, yağlı boya, 200 x 300 sm)*

Musiqi və təbiətin qarşılıqlı simfoniyası adlandırılan "Musiqi beşiyimiz" (2003) əsərində rəssam fikirlərinin şərhində öz fərdi manerasından məntiqi şəkildə istifadə etmişdir. Kompozisiyada Topxana meşəsi, Daşaltı çayı, Kis dağı canlandırılmışdır. Arxa fonda isə qismən xətti prespektivadan istifadə edilmişdir. Məkan, soyuq və isti rənglərin ritmik təkrarlanması bu kompozisiyanın əsas xüsusiyyətləridir. Əsərdə əsas diqqət mərkəzi isə Qarabağın məşhur "Şuşa" xalçası üzərində milli musiqi alətlərimizin təqdim olunmasıdır.

"İsa bulağına gedən yol" adlandırılan motivə rəssam iki bir-birindən fərqli süjet xətti ilə müraciət etmişdir. Birinci kompozisiyada Şuşanın məşhur İsa bulağı və meşəsinin təsvir metodunda rəssam impressionistlərə xarakterik olan təsvir üsulundan istifadə etmişdir. Bulağa gedən yol blik və işıq-kölgə vasitəsilə vurğulanaraq, sanki insanı həmin yerlərə bir daha canlı olaraq aparır. Digər əsərdə isə rəssam "İsa bulağında" öz dostları ilə təbiət qoynunda istirahət edərkən təsvir etmişdir.

"Natəvan bulağı" (2018) əsərində rəssam xan qızının evi qarşısında yerləşən, məşhur bulağı təsvir etmişdir. Bulağın yanında Natəvanın mozaikalardan qurulmuş ikonoqrafik obrazı, ümumilikdə əsərin tarixi əhəmiyyətliliyini artırır. Həmin bulağın indiki vəziyyəti barəsində dəqiq bilgimiz çox təssüf olsun ki yoxdur...

Asif Azərelli Şuşanı öz əsərlərində təsvir etməklə, bu torpağın vurğunu olduğunu, özünü bu yerlərdə yenidən olacağına əsərləri ilə sübut edir. 2000-ci ildə canlandırdığı kompozisiyasında mənzərə və məişət janrlarının qarşılıqlı əlaqəsini görə bilərik. 2015-ci ildə bütövlükdə qədim şəhərin ümumi mənzərəsini canlandırmışdır (İll 2).



***İll 2.*** *"Şuşa" (kətan, yağlı boya, 50x80 sm)*

Asif Azərelli yaradıcılığında Şuşa qalası" ,"Şuşa qalası tele qüllə ilə", "Əsgəran qalası" (2016) (ill 3) ,"Şuşada su pavilyonu"(2018) (ill 4) və digər əsərlərində Qarabağın tarixi abidələrini öz tablolarında canlandırmışdır.



***İll 3.*** *"Şuşada su pavilyonu" (kətan, yağlı boya, 100x70 sm)*



***İll 4.*** *"Əsgəran qalası" (kətan, yağlı boya, 90x70 sm)*

"Şuşalı cavanlar" mövzusunu bir neçə dəfə fərqli formalarda təqdim etmişdir. Cavanların özlərinə qılınc seçməsi, dəmirçinin yanında öz silahlarını itiləməsi, hər zaman vətənlərinin müdafiəsinə hazır olmalarını sübut edir.Digər bir kompozisiyada isə Şuşalı cavanlar ilə vətənin keşiyində dayanan əsgər vətənpərvər ruhlu əsərin daxili təsir gücünü artırır.

Əməkdar rəssam Asif Azərellinin Şuşanın məşhur xarıbülbülünü də əsərlərində təsvir etməyi unutmamışdır. "Qarabağ atı xarıbülbül ilə" (2018) əsərində çərçivənin içində yenidən Qarabağ atı ön plana çəkilmişdir. Şuşa şəhərinin tarixi mərkəzində yerləşən və Qarabağ

xanlığının banisi Pənahəli xanın iqamətgahı olmuş tarixi saray isə arxa fonda əzəmətliliyi ilə seçilir. Pənahəli xanın dövründə saray xanın iqamətgahı olmaqla bərabər, həm də xan ailəsi ilə birlikdə bu sarayda yaşamışdır. Tarixdə Qarabağ xanlarının əsas siyasi iqamətgahı ilk Qarabağ xanı Pənahəli xanın saray-qəsri olmuşdur.

"Şuşanın gözəl günlərindən biri" (2019) əsərində yenidən tarixi torpağımızda əhalinin məişət həyatını əks etdirən sənətkar burada baş verən hadisələri tematik tablo kimi canlandırır. Monumetal boyakarlıq ənənələrinə xas olan xüsusiyyətləri özündə birləşdirən əsərdə xalqın məişət, geyim tərzi, estetik ruhunu duya bilərik. Şuşanın qədim evləri, gözətçi məntəqəsi tarixi diyarımıza bir daha rəssamın əsəri vasitəsilə bizləri səyahət etməyə maraq göstərir. Arxa fonda cavanlar özlərinə ov quşu və qılınc seçir.



***İll 5.*** *"Şuşanın gözəl günlərindən biri" ( kətan, yağlı boya, 2000x3000 sm)*

Ata öz gənc qızlarına cehizlik Şuşa xalçasını göstərir. Şuşa xalçaları xovunun daha da hündür olması, əlvan, şux koloritli, çox nazik, incə, zərif xüsusən də dəst xalı-gəbə kimi iri ölçülü xalçaların toxunması ilə seçilir. Bu qrupa daxil olan xalçalarının tarixi XVIII əsrin ikinci yarısına, Şuşanın təsis edilməsindən sonrakı dövrə təsadüf edir. XVIII əsrin ikinci yarısından etibarən Qarabağın xalça istehsalı əsasən mərkəzi Şuşa şəhərində inkişaf edir. Toxuduğu xalça və palazların sayı və keyfiyyətinə görə mədəniyyət paytaxtı XIX əsrdə Qarabağda birinci yeri tuturdu. İncəliyi, zərifliyi,təmtəraqlılığı,rəngarəngliyi ilə seçilən "Ləmpə", "Qoca", "Bulud" xalçaları və "Dəst xalı-gəbə" kimi xalça dəstləri burada toxunub.

Oxumuş insanın özünə çıraq seçməsi, ustanın dəmir düzəltməsi tarixi şəhərimizdə müxtəlif sənət növlərinin inkişafını bir daha sübut edir. Əsərdə geyimlərin təsviri obrazların parlaqlılığını bir daha vurğulayır.

Azərbaycanın, eləcə də Qarabağın zəngin maddi mədəniyyət irsinin araşdırılması kontekstində geyimlərin və bəzəklərin özünəməxsus yeri vardır. Uzun sürən tarixi inkişaf prosesinin məhsulu olan geyim mədəniyyəti yerli təbii-coğrafi şəraitin, əhalinin təsərrüfat məşğuliyyətinin istiqamətinin, sosial-iqtisadi inkişafın gerçəkliyini, sosial təbəqələşmə və ictimai fərqlərin, eləcə də xalqımızın etno-sosial birliyində qərarlaşan, birlikdə yaşadığı etnoslarla qarşılıqlı təmas, etno-sosial, etno-siyasi və etno-mədəni əlaqələrin yaratdığı müştərək zənginləşmənin fəal təsiri altında formalaşmış və inkişaf etmişdir.

Kompozisiyada Qarabağın geyim mədəniyyəti də canlandırılmışdır. XIX-XX əsrin əvvəllərində Azərbaycanın ənənəvi qadın geyimləri özünün parlaq rəng əlvanlığı, biçim tərzi və tikiş üslubunun mürəkkəbliyi, eləcə də tip və formalarının fərqli olması ilə seçilirdi. Qarabağın milli qadın geyimləri tarixən «alt paltarı» və «üst paltarı» olmaqla iki əsas variantda mövcud olmuşdur. Qadın alt köynəkləri tuniki biçim üslubunda tikilib, əldə toxunan ,satınalma pambıq və zərli ipək parçalardan tikilirdi. Üst geyim tiplərinin əsas elementlərindən biri üst köynəyi hesab olunurdu. Onu tuniki və ya kəsmə (doğrama) biçim üsulu ilə tikərək, qollarının ağzını bilərzikli və ya yelpazəli hazırlayır, qoltuğunun altına isə fərqli parçadan incə xiştək (qoltuqaltı) qoyurdular. Qarabağ qadın köynəklərinin boyun hissəsi həm boyunduruqlu («dik yaxa»), həm də boyunduruqsuz olurdu.Məşhur baş geyimləri ilə öz şöhrətini qazanan bu bölgə geyim mədəniyyətimizin inkişaf tarixini bir daha sübut edir.

XIX-XX əsrin əvvəllərində Qarabağ əhalisinin ənənəvi kişi geyimləri öz biçim üsuluna və tikiş texnikasına görə ümumazərbaycan və hətta ümumqafqaz səciyyəsi daşıyaraq, yalnız çox da böyük əhəmiyyəti olmayan lokal-məhəlli xüsusiyyətləri ilə seçilirdi. Kişi üst köynəkləri əsasən şilə, qədək, çit, fay, qanovuz, atlas, mahud, məxmər parçalardan biçilib tikilirdi. Ənənəvi kişi baş geyimləri müxtəlif növ materiallardan (dəri, keçə, parça) hazırlanmaqla bərabər, həm tikili, həm də bağlama formasında olmuşdur. Bəhs olunan dövrdə Qarabağ əhalisinin yaşından asılı olmayaraq bütün kişiləri başlarına təmiz dəridən hazırlanan papaq geyirdilər. Bir qayda olaraq yaşlı nəslə mənsub olanlar uzun, 8 girvənkə ağırlığında konusşəkilli formadan, ucu şiş, cavanlar və uşaqlar isə «qarabağ fasonlu» yüngül, dairəvi papaqlar geyirdilər.

Əsərin maraqlı məqamlarından biri isə eyvandan gülləri sulayan gənc qızın öz işini görməsi yoxsa cavan oğlanla sevgi dolu baxışları tamaşaçıda sual doğurur.Milli ənənələr, geyimlərimiz, cavanlı-qocalı Şuşa əhalisinin yaşayışının gözəl günlərindən birini Asif Azərelli vətənpərvər rəssam kimi bir daha çatdırmışdır.

**Nəticə.** "Asif Azərelli yaradıcılığında Şuşa əfsanəsi" mövzusunun əsas nəticələri aşağıdakılardır:

- ✓ Asif Azərelli yaradıcılığında mühüm yer tutan Şuşa mövzusu geniş şəkildə araşdırılmışdır.
- ✓ Rəssamın Şuşa kompozisiyaları müasir Azərbaycan rəngkarlığında bu mövzunun işlənilməsində oynadığı rolu təqdim edilmişdir
- ✓ Azərbaycan sənətşünaslığında ilk dəfə bu mövzu araşdırılmışdır.

Allah bizə əməkdar rəssam Asif Azərellinin Şuşa tablolarında yaratdığı əfsanəni tezliklə bizə öz gözlərimizlə görməyi nəsib etsin.

## İstifadə olunmuş ədəbiyyat

1. Ağayev E. "Asif Azərelli yaradıcılığında Qarabağ mövzusu" // Elmi əsərlər, ADMİU. – 2019. – №27. – S. 110-113
2. Ağayev E. Asif Azərelli yaradıcılığında mənzərə janrı // İncəsənət və mədəniyyət problemləri, AMEA. – 2019. № 3(69). – S. 80-89
3. Əliyev Z. Miniatüra üslubu yeni bədii təmayüllərin yaranması kontekstində //"Elm, mədəniyyət və incəsənətin qarşılıqlı əlaqəsi və müasir cəmiyyətin inkişafında rolu, III respublika elmi-nəzəri konfransının materiallar toplusu. ADMİU. – 2019, 19-20 dekabr. – S. 29-37
4. Əsgərova X. XX əsr Azərbaycan boyakarlığının inkişafı. Bakı: 2015. – 187 s